Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir

# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

## Layihə: Azərbaycanda mediasiyanın təşviqi

Bu layihə mübahisələrin alternativ həllinin təşviqinə diqqət yetirməklə, ədalət mühakiməsi sahəsində Avropa standartlarını təşviq etməyə çalışacaq. O, yerli hüquqi və institusional bazaların beynəlxalq yaxşı təcrübələrə uyğunlaşdırılması və Azərbaycanda mediasiyaya müraciətin artırılması məqsədilə dövlət orqanlarının, hüquqşünasların, mediatorların və d. potensialının gücləndirilməsinə kömək edəcəkdir.

Bu layihə Avropa İttifaqı və Avropa Şurasının 2023-2027-ci illəri əhatə edən "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" birgə proqramının üçüncü mərhələsi çərçivəsində həyata keçirilir. Layihə ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının əvvəlki mərhələlərinin (I mərhələ 2015-2018 və II mərhələ 2019-2023) nəticələrinin davamı olaraq həyata keçirilir.

### Layihənin məqsədi nədir?

- Azərbaycanda mediasiyaya müraciəti artırmaq.

### Layihədən kim faydalanır?

- Ədliyyə Nazirliyi
- Mediasiya Şurası
- Ədliyyə Akademiyası
- Hakimlər
- Vəkillər
- Mediatorlar
- Vətəndaş cəmiyyəti
- Ümumi ictimaiyyət

### Layihə necə fəaliyyət göstərir?

- Uyğunlaşdırılmış siyasət/qanunvericilik, potensialın artırılması və maarifləndirmə tədbirlərinin kombinasiyası vasitəsilə.

### Biz nəyə nail olmaq istəyirik?

- Mediasiya xidmətlərinin əlçatanlığının və keyfiyyətinin yaxşılaşdırılması;
- Pilot təşəbbüsləri dəstəkləməklə mediasiya xidmətlərini təklif etmək üçün innovatov yanaşmalar;
- Potensialın gücləndirilməsi tədbirləri vasitəsilə mediatorların bilik və bacarıqlarının artırılması;
- Məhkəmə əməkdaşları və vətəndaşlar arasında mediasiya haqqında məlumatlılığın artırılması.

### Layihənin büdcəsi nə qədərdir?

- Layihənin ümumi büdcəsi 880,000 avro təşkil edir.
- Proqramın ümumi büdcəsi 19,3 milyon avro təşkil edir (80%-i Avropa İttifaqı, 20%-i Avropa Şurası tərəfindən maliyyələşdirilir).

### Layihənin müddəti nə qədərdir?

- Layihə 1 mart 2023-cü il tarixindən 28 fevral 2026-cı tarixinədək davam edəcək.

## Əlavə məlumat necə əldə etmək olar?

- Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı
  Veb-səhifə: http://partnership-governance-eu.coe.int/
  e-mail: dpc_pgg@coe.int
- Avropa Şurasının Bakıdakı Ofisi
  Veb-səhifə: https://www.coe.int/baku/
  e-mail: fieldbaku@coe.int

*“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” (PGG) Şərq Tərəfdaşlığı regionunda yaxşı idarəçiliyin gücləndirilməsi üçün Avropa İttifaqı və Avropa Şurasının birgə təşəbbüsüdür.*

*PGG Prorqamı insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində Şərq Tərəfdaşlığı ölkələrinin qanunvericilik və təcrübələrini Avropa standartlarına uyğunlaşdırmaq üçün onların ehtiyaclarına müvafiq dəstək göstərir. Proqram, xüsusilə Şərq Tərəfdaşlığı ölkələrinin ədalət mühakiməsini gücləndirmək, iqtisadi cinayətlərə qarşı mübarizə aparmaq, bərabərlik və ayrı-seçkiliyə yol verməmək, qadınların ədalət mühakiməsinə çıxış imkanlarını artırmaq və qadınlara qarşı zorakılıqla mübarizə aparmaq üçün həyata keçirilən daxili islahatları dəstəkləyir.*